Bakı Ali Neft Məktəbinin ___.___. 2015-ci il tarixli _________________________ nömrəli əmri ilə təsdiq edilmişdir

# BAKI ALİ NEFT MƏKTƏBİNDƏ İMTAHANLARIN TƏŞKİLİ VƏ KEÇİRİLMƏSİ QAYDALARI

## 1. Ümumi müddəalar

**1.1.** Bakı Ali Neft Məktəbində (BANM) imtahanların təşkili və keçirilməsi qaydaları (bundan sonra "Qaydalar") BANM-in tələbələrinin qanunçuluq, obyektivlik, bərabərlik, şəffaflıq və aşkarlıq prinsipləri əsasında biliklərinin yoxlanılmasını təmin etmək, imtahan zamanı tələbələr üçün müəyyən edilmiş vəzifələrin, qadağan olunmuş davranış və hərəkətlərin dairəsini, bu qaydaların tələblərinə riayət etməyən tələbələrə veriləcək cəzaların tətbiq edilməsi mexanizmini, imtahan nəzarətçilərinin hüquq və vəzifələrini və digər müvafiq normaları müəyyən etmək məqsədilə hazırlanmışdır.

**1.2.** Bu Qaydalar Azərbaycan Respublikasının təhsil haqqında qanunvericilik aktlarının, BANM-in Nizamnaməsinin və BANM-in tələbələrinin daxili intizam qaydalarının müddəalarına müvafiq olaraq tərtib olunmuşdur.

## 2. BANM-in hüquqları:

**2.1.** Tələbələrdən təhsil müddətində bu qaydalar üzrə öhdəliklərin yerinə yetirilməsini tələb etmək;

**2.2.** bu Qaydaların 5.8.-ci bəndində qeyd edilən əşyalardan başqa əlavə əşya ilə imtahan zalına daxil olmuş tələbəni imtahandan kənarlaşdırmaq;

**2.3.** imtahanın başlanmasından 15 dəqiqə keçdikdən sonra imtahan zalına daxil olmaq istəyən tələbəni imtahana buraxmamaq;

**2.4.** İmtahan başlandıqdan sonra 15 dəqiqə ərzində və imtahanın bitməsinə 15 dəqiqə qalmış imtahan zalını tərk etmək istəyən tələbəyə icazə verməmək (4.5.-ci bənddə qeyd edilən hal istisna olmaqla);

**2.5.** BANM-in tələbələrinin daxili intizam qaydalarında nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

## 3. BANM-in vəzifələri:

**3.1.** bu Qaydaların tələblərinə riayət edərək BANM-in tələbələrinin biliklərinin yoxlanılmasına şərait yaratmaq və imtahanların yüksək səviyyədə təşkil edilib keçirilməsini təmin etmək;

**3.2.** bu Qaydaların müddəaları ilə BANM-in tələbələrini əvvəlcədən tanış etmək və onları düzgün şəkildə təlimatlandırmaq;

**3.3.** hər bir imtahan zalını müvafiq sayda təlimatlandırılmış imtahan nəzarətçiləri ilə təmin etmək;

**3.4.İmtahan nəzarətçilərinin hüquq və vəzifələri:**

**3.4.1.** tələbənin qeydiyyatdan keçməsini təmin edərək imtahan zalında yerləşdirmək;

**3.4.2.** tələbələri bu Qaydaların tələblərinə müvafiq hüquq və vəzifələri, onlar üçün müəyyən edilmiş qadağalar haqqında bir daha təlimatlandırmaq;

**3.4.3.** imtahanın başlanmasını və başa çatmasını elan etmək;

**3.4.4.** imtahan zamanı nizam-intizam yaratmaq və tam səssizliyi təmin etmək;

**3.4.5.** imtahan başa çatdıqdan sonra tələbələrin cavab kartlarının doldurulmasını dayandırmaq barədə elan vermək, cavab kartları və sual kitabçalarını toplamaq;

**3.4.6.** imtahan bitdikdən sonra BANM-in İmtahan komissiyası tərəfindən ona təqdim edilmiş "İmtahan nəzarətçisinin qeyd vərəqi"ni tamamlamaq, imzalamaq və imtahan komissiyasının sədrinə təqdim etmək;

**3.4.7.** imtahan zalına mobil telefonla (baş nəzarətçi istisna olmaqla) və hündür daban ayaqqabı ilə daxil olmamaq;

**3.4.8.** imtahan zamanı imtahanın keçirilməsi ilə bağlı yaranmış problemlərin aradan qaldırılması üçün zəruri tədbirlər görmək;

**3.4.9.** tələbə bu Qaydaların tələblərinə riayət etmədiyi halda, törədilmiş pozuntuya uyğun olaraq ona xəbərdarlıq etmək, zərurət olduqda tələbənin birbaşa imtahan zalından çıxarılması üçün baş nəzarətçiyə müraciət etmək və imtahan komissiyasının sədrini dərhal məlumatlandırmaq;

**3.4.10.** imtahanın keçirilməsi üçün nəzərdə tutulmuş proqram təminatında problemlər yarandıqda, fövqəladə hallarda, texniki səbəbdən imtahanın davam etdirilməsi mümkün olmadığı və ya imtahanın keçirilməsinə mane olan hallar zamanı imtahan komissiyasının sədrini dərhal məlumatlandırıb onu imtahan zalına dəvət etmək.

**4. Tələbənin hüquqları:**

**4.1.** imtahan zamanı qayda pozuntusu ilə rastlaşdıqda dərhal imtahan nəzarətçisinə müraciət etmək, nəzarətçi tərəfindən zəruri tədbirlər görülmədikdə, BANM-in imtahan komissiyasının sədrinin imtahan zalına gəlməsini tələb etmək;

**4.2.** imtahan nəzarətçilərinin fəaliyyəti imtahan prosesinin tələblərinə uyğun olmadıqda, bu barədə imtahan komissiyasının sədrini məlumatlandırmaq;

**4.3.** imtahan zalına su (qazsız) ilə daxil olmaq və imtahan zamanı istifadə etmək;

**4.4.** bu Qaydaların 4.5-ci bəndinin tələblərinə riayət etmək şərti ilə imtahan zalını vaxtından əvvəl tərk etmək (belə halda vaxtından əvvəl tərk etmənin nəticələrinə görə tələbə şəxsən məsuliyyət daşıyır);

**4.5.** səhhəti ilə bağlı zərurət yarandıqda, BANM-in imtahan komissiyasının sədrinin icazəsi olmaqla, yalnız imtahan nəzarətçisinin müşayiəti ilə imtahan zalını qısamüddətli lakin 10 dəqiqədən çox olmamaq şərti ilə tərk etmək;

**4.6.** fövqəladə hallar yarandıqda təhlükəsizlik qaydalarına riayət etməklə dərhal BANM-in inzibati binasını tərk etmək;

**4.7.** bu Qaydaların 7-ci bəndinin tələblərinə riayət etməklə imtahan nəticələrinin yenidən qiymətləndirilməsi üçün müraciət etmək.

**5. Tələbənin vəzifələri:**

**5.1.** imtahana gəlməzdən öncə ona təqdim edilmiş "İmtahanların təşkili və keçirilməsi qaydaları" ilə bir daha tanış olmaq;

**5.2.** imtahanın başlamasına 15 (on beş) dəqiqə qalmış imtahan zalına daxil olmaq;

**5.3.** imtahana mobil telefon, iPad, peycer, yaddaş kartı, konspekt, lüğət, elektron lüğət, cədvəl, məlumat kitabçası, ağardıcı, karandaş, pozan və digər yardımçı vasitələr gətirməmək;

**5.4.** imtahan zalında yerdəyişmə etməmək, gəzişməmək, yerindən durmamaq, digər tələbələrlə danışmamaq və bu kimi hallarla imtahanın gedişinə mane olmamaq;

**5.5.** başqa tələbənin sual kitabçasına, cavab kartına baxmamaq və ya öz sual kitabçasından, cavab kartından başqa tələbənin istifadə etməsi üçün şərait yaratmamaq;

**5.6.** imtahan nəzarətçilərinə imtahan suallarının cavablandırılmasına kömək etməsi üçün müraciət etməmək;

**5.7.** imtahan zalını yalnız cavab kartını nəzarətçiyə təhvil verdikdən sonra tərk etmək;

**5.8.** özü ilə tünd göy rəngdə yazan, mürəkkəb axıtmayan diyircəkli qələm, kalkulyator (OFFİCA fh 5500, CASİO FX 82 S PLUS) və tələbə kartını (BANM və HVU tərəfindən verilmiş) gətirmək və imtahan boyu tələbə üçün ayrılmış masanın üzərində olmasını təmin etmək;

**5.9.** imtahan zalına daxil olmazdan əvvəl özü ilə gətirdiyi digər əşyaları xüsusi ayrılmış otaqda saxlamaq və imtahan zalına yalnız bu Qaydaların 5.8.-ci bəndində qeyd edilmiş əşyalarla daxil olmaq;

**5.10.** yalnız tələbə üçün ayrılmış masada əyləşmək;

**5.11.** nəzarətçinin imtahanla bağlı təlimatlarını diqqətlə dinləmək və imtahan boyu bu təlimatlara əməl etmək;

**5.12.** yalnız imtahan nəzarətçisinin göstərişindən sonra imtahan suallarına nəzər yetirmək, suallarda çap qüsuru və ya texniki qüsur aşkarlanarsa bu barədə nəzarətçini dərhal məlumatlandırmaq;

**5.13.** "İmtahan başlandı!" elan edildiyi andan suallara cavab vermək üçün ayrılan vaxtdan səmərəli istifadə etmək, sualların cavablandırılmasını mümkün qədər aydın, başa düşülən xətlə icra etmək;

**5.14.** "İmtahan bitdi!" elan edildiyi andan imtahan suallarını cavablandırma prosesini dərhal dayandırmaq və cavab kartını digər imtahan suallarının cavablandırılması məqsədilə ona verilmiş əlavə vərəqlərlə birgə nəzarətçiyə təqdim etmək;

**5.15.** vaxtından əvvəl imtahan zalını tərk etmək istədikdə imtahan prosesinə mane olmamaq və digər imtahan iştirakçılarına hörmətlə yanaşmaq.

## 6. Apelyasiya qaydasında şikayət

**6.1.** Tələbə (Heriot-Vatt Universitetinin proqramı əsasında təhsil alan tələbələr istisna olmaqla) imtahan nəticələrinin elan edildiyi tarixdən 3 (üç) iş günü müddətində BANM-in İmtahan Komissiyasının sədrinə imtahan cavablarına yenidən baxılıb qiymətləndirilməsi üçün yazılı şəkildə müraciət edə bilər.

**6.2.** İmtahan cavablarına yenidən baxmaq üçün yaradılmış komissiya üzvləri və müraciət etmiş tələbənin iştirakı ilə imtahan nəticələri yenidən qiymətləndirildikdən sonra qəbul edilən qərar tələbə üçün dəyişilməzdir.

## 7. Nəzərdə tutulmayan öhdəliklər

**7.1.** Tələbənin imtahan suallarını cavablandırması üçün istifadə etdiyi cavab kartı bu məqsədlə ona verilmiş hər hansı digər ləvazimatla birlikdə Bakı Ali Neft Məktəbinin mülkiyyəti hesab edilir və yalnız qanunla bu hüququn məhdudlaşdırılmasına yol verilir.

**7.2.** Bu qaydalarda nəzərdə tutulmayan xətalara yol vermiş tələbəyə qarşı BANM-in tələbələrinin daxili intizam qaydaları ilə müəyyən edilmiş intizam tənbehi tətbiq edilir.